DÜNYA XƏBƏRLƏRİ

# Dronlar Mahaçqalaya hücum edib. Soçidə 28 nəfər xəsarət alıb

47 dəqiqə öncə



Soçidə dəniz dronlarının hücumu zamanı partlayış

Sentyabrın 10-na keçən gecə Ukrayna dronları Rusiyanın bir neçə bölgəsinə, o cümlədən Dağıstana, Voronej vilayətinə və Krasnodar diyarına hücum edib.

Dağıstan rəhbərinin səlahiyyətlərini icra edən **Fyodor Şukin** deyib ki, hava hücumundan müdafiə qüvvələri hücumu dəf edib, **"bütün hava hədəfləri məhv edilib"**. Şukin dron qalıqlarının Mahaçqala limanında, Avar Musiqili Dram Teatrında yanğınlara səbəb olduğunu da bildirib. Xəsarət alan olmayıb.

"ASTRA" yazır ki, hücumun hədəfi Xəzər dənizində Rusiyanın ilboyu yeganə donmayan dərin su limanı – Mahaçqala Dəniz Ticarət Limanı ola bilərdi. Liman həm maye, həm də quru yüklərə xidmət göstərir.

Ukrayna prezidenti **Volodimir Zelenski** sentyabrın 10-da səhər saatlarında Mahaçqaladakı dəniz limanına zərbə endirildiyini təsdiqləyib.

Voronej vilayətində dronun fərdi yaşayış evinin üzərinə düşməsi nəticəsində yanğın baş verib. Bir qadın həlak olub, daha iki nəfər xəsarət alıb. Açıqlamanı vilayət qubernatoru **Aleksandr Qusev** verib.

"Exilenova+" NASA FIRMS sistemindən Azov dənizində, Kerç yaxınlığında yanğını göstərən peyk görüntüsü yayıb. Rusiyanın "kölgə donanması"na daxil olan gəmilərdən birinin yandığı ehtimal edilir.




Ukrayna və Rusiya Telegram kanalları gecə saatlarında Soçidə partlayışların baş verdiyini bildiriblər. Sentyabrın 10-da səhər saatlarında 28 nəfərin xəsarət aldığı, onlardan dördünün xəstəxanaya yerləşdirildiyi açıqlanıb.

Ukrayna hərbçiləri bu hücumu hələlik şərh etməyiblər.

Rostov vilayətinin qubernatoru **Yuri Slyusar** 90-a yaxın dronun məhv edildiyini bildirib.

Kalmıkiya, Kuban, Həştərxan və Volqoqrad vilayətlərinin rəsmiləri gecə hücumunu şərh etməyiblər.

Rusiya Müdafiə Nazirliyi hava hücumundan müdafiə qüvvələrinin Ukraynaya məxsus 448 dronu ələ keçirərək məhv etdiyini bildirib.

Bu rəqəmi müstəqil mənbələrdən təsdiqləmək mümkün olmayıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur